AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Aprel 2023

# M ü n d ə r i c a t


**FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı** ........ 2

**Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ........ 3

**Rusiya buğdasının ixrac qiyməti** ........ 6

**Arpanın dünya bazarı qiymətinə dair qısa icmal** ........ 7

**Düyünün dünya bazarı qiymətinə dair qısa icmal** ........ 8

**Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal** ........ 9

**Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ........ 10

**Pambığın dünya bazarı qiymətinə dair qısa icmal** ........ 11

**Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal** ........ 12

**Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal** ........ 13

**Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal** ........ 14

**Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal** ........ 15

**Çayın dünya bazarı qiymətinə dair qısa icmal** ........ 16

**Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal** ........ 17

**Soyanın dünya bazarı qiymətinə dair qısa icmal** ........ 18

**Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ........ 19

**Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal** ........ 20

**Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal** ........ 21

**Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ........ 22

**Südün dünya bazarı qiymətinə dair qısa icmal** ........ 23

**Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal** ........ 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 5 may 2023-cü il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2023-cü ilin aprel ayında artmışdır.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2023-cü ilin aprel ayında orta hesabla 127.2 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.8 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 19.7% (31.2 bənd) **azdır**.
- **Ət Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 114.5 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.3% (1.5 bənd) çoxdur, ötən ilin aprel ayı ilə müqayisədə isə 6.1% (7.4 bənd) **azdır.**
- **Süd Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 124.6 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.7% (2.2 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 15.1% (22.1 bənd) **azdır**.
- **Taxıl Qiyməti İndeksi** aprel ayında orta hesabla 136.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.8% (2.5 bənd) az, ötən ilin aprel ayı ilə müqayisədə isə 19.8% (33.6 bənd) **azdır**.
- **Bitki Yağlarının Qiymət İndeksi** aprel ayında orta hesabla 130.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.3% (1.7 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 45.2% (107.4 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 149.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 17.6% (22.4 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 22.9% (27.9 bənd) **çoxdur.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** [http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/](http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/)

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 may 2023-cü il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2023/2024-cü məhsul ili üzrə qlobal buğda istehsalının 2022/2023-cü ilə nəzərən 1.5 milyon ton artaraq 789.8 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 286 | 273 | 266 |
| | İstehsal | 780 | 788 | 790 |
| | **Cəmi təklif** | 1066 | 1061 | 1056 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 215 | 210 |
| **TƏLƏB** | Ərzaq və toxum | 632 | 639 | 641 |
| | Yem | 161 | 156 | 151 |
| | Cəmi istifadə | 793 | 795 | 792 |
| **İLİN SONUNA QALIQ** | | 273 | 266 | 264 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **34%** | **34%** | **33%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2022/2023-cü məhsul ili ilə müqayisədə 5 milyon ton azalaraq 1056 milyon ton olacağı proqnozlaşdırılır. Bunun başlıca səbəbi ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 2.6% azalaraq 266 milyon tona düşməsidir.
- Qlobal buğda ehtiyatları həcminin 2022/2023-cü məhsul ili ilə müqayisədə 2023/2024-cü məhsul ilində 0.8% azalacağı və 264 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 33% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 3 milyon ton artaraq 63 milyon ton, istehsal həcminin isə 2022/2023-cü məhsul ili ilə müqayisədə 12 milyon ton azalaraq 382 milyon ton olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 9 milyon ton azalaraq 445 milyon ton olacaq.

- Dünya buğda ticarətinin 2023/2024-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 5 milyon ton azalaraq 210 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2022/2023-cü məhsul ili ilə müqayisədə 2 milyon ton artaraq 139 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2023/2024-cü məhsul ilində istehsal həcminin 11.8% azalaraq 126.3 milyon ton, ixracın isə 5.6% azalaraq 66.9 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi noyabr ayında yenidən azalma ilə əvəzlənmişdir. Ucuzlaşma 2023-cü ilin aprel ayında da davam etmiş, qiymət əvvəlki aya nisbətən 2.4% azalaraq təqribən 277 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.







Mənbə: https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiymətindəki azalma 2023-cü ilin aprel ayında da davam etmişdir. Aprel ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 3.3% azalaraq təqribən 278 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında Avropa İttifaqı bazarında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 7.0% azalaraq 266 ABŞ dolları səviyyəsində qərarlaşmışdır. Qara dəniz arpasının qiyməti isə əvvəlki ayla müqayisədə 1.8% azalaraq 243 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral-mart aylarından düyünün qiymətində müşahidə olunan azalma trendi aprel ayında yenidən artımla əvəz olunmuşdur. Aprel ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 4.8% artaraq 483 ABŞ dolları səviyyəsinə qalxmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiymətində fevral ayından başlayan azalma aprel ayında cüzi artımla əvəz olunmuşdur. Aprel ayında qarğıdalının qiyməti əvvəlki aya nisbətən 3.1% artaraq 291 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə 0.1% artaraq 25.3 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 May | 2023/2024 May |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.1 | 18.0 | 21.4 | 18.8 | 18.8 | 20.2 |
| **İstehsal** | 25.8 | 26.1 | 24.2 | 25.2 | 25.3 | 25.2 |
| **Təklif** | 43.9 | 44.2 | 45.6 | 44.0 | 44.1 | 45.4 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.2 | 23.9 | 25.3 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.8 | 18.8 | 20.2 | 20.1 |
| ***Qalıq/İstehlak nisbəti*** | *69.2%* | *94.3%* | *70.0%* | *74.3%* | *84.5%* | *79.4%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 May |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 7.9 | 8.2 | 8.4 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.7 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.5 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 16.6 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.3 | 7.9 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.4 | 8.6 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.4 | 8.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *113.9%* | *107.7%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 May |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.5 | 10.4 |
| **İstehsal** | 20.1 | 17.8 | 19.4 | 18.6 |
| **Təklif** | 30.4 | 31.3 | 29.9 | 29.0 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 17.9 | 15.9 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.5 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.6 | 17.4 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.5 | 10.4 | 11.6 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.1%* | *51.0%* | *52.9%* | *66.5%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

## Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ Son 6 ay ərzində pambığın dünya bazarı qiyməti demək olar ki, stabil qalmışdır. Aprel ayında da pambığın 1 kiloqramının “A Index” qiyməti əvvəlki aya nisbətən dəyişməmişdir.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 2.0% azalaraq 62.8 min ABŞ dolları/ton səviyyəsinə enmişdir.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 1.1% azalaraq tona 20.2 min ABŞ dolları səviyyəsinə enmişdir.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ 2022-ci ilin oktyabr ayından günəbaxan yağının qiymətində başlayan azalma trendi 2023-cü ilin aprel ayında da davam etmişdir. Belə ki, günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 1.0% azalaraq 1045 ABŞ dolları səviyyəsinə enmişdir.







**Mənbə:** https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade

## Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 3.0%, İspaniya bazarında 3.4%, Yunanıstan bazarında 7.6% artmaqla müvafiq olaraq 6718, 5818 və 5489 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Çayın qiymətində 2022-ci ilin sentyabr ayından başlayan azalma trendi aprel ayından artımla əvəz olunmuşdur. Aprel ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ayla müqayisədə 9.6% artaraq 3.0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında şəkərin dünya bazarı qiyməti son bir il ərzində özünün ən yüksək səviyyəsinə çatmışdır. Belə ki, əvvəlki ayla müqayisədə 17.8% artaraq 0.53 ABŞ dolları/kq səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində fevral ayında müşahidə edilən artım mart-aprel aylarında azalma ilə əvəz olunmuşdur. Aprel ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 2.1% azalaraq 615 ABŞ dolları səviyyəsinə enmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin fevral ayından başlayaq mal ətinin dünya bazar qiymətində müşahidə olunan artım aprel ayında da davam etmişdir. Aprel ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 1.5% artaraq 5.7 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ Aprel ayında qoyun ətinin qiyməti son bir il ərzində özünün ən yüksək həddinə çatmışdır. Belə ki, Avropa bazarında qoyun ətinin 1 kiloqramının orta qiyməti ötən aya nisbətən 7.5% artaraq 8.3 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin aprel ayında Avropa bazarında donuz ətinin 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 5.7% artaraq 2.6 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** [https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html](https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html)

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti aprel ayında əvvəlki ayla müqayisədə 1.2% artaraq 3.37 ABŞ dolları səviyyəsinə qalxmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2023-cü ilin mart ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti əvvəlki ayla müqayisədə ABŞ-da 2.3%, Yeni Zelandiyada 3.7% azalmaqla müvafiq olaraq 465 və 392 ABŞ dolları olmuşdur. Avropa İttifaqı bazarında isə aprel ayında qiymət əvvəlki ayla müqayisədə 0.6% azalaraq 536 ABŞ dolları təşkil etmişdir.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Quru südün 1 tonunun qiyməti 2023-cü ilin aprel ayında əvvəlki ayla müqayisədə ABŞ-da 2.7% azalaraq 4630 ABŞ dolları, Avropa İttifaqında isə 0.2% artaraq 3724 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

- Aprel ayında kalium və azot gübrələrinin qiyməti əvvəlki aya nisbətən müvafiq olaraq 11.2%, 0.04% azalaraq 408 və 313 ABŞ dolları, fosfor gübrəsinin qiyməti isə 2.3% artaraq 550 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







Mənbə: https://www.worldbank.org/en/research/commodity-markets

**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ